# Xürrəmilər və ya Babəkilər hərəkatı



Tarixən Azərbaycanda yadelli işğalçılara qarşı güclü hərəkatlar olmuşdu. Bu azadlıq hərəkatları içərisində istər iştirakçılarınının sayına, istərsə də yönəldiyi dövlətin dayaqlarının zəiflətməsində Xürrəmilər hərəkatı qədər güclü hərəkat olmamışdır. Bu hərəkat tariximizdə xarici işğalçılara qarşı yönəlmiş və pik səviyyəyə yüksələn azadlıq hərəkatıdır. Biz Xürrəmilər hərəkatının gedişinə keçməzdən əvvəl bu hərəkatın adının haradan yaranması, hərəkatın yaranma tarixinə nəzər salaq. Bu hərəkatın başlaması haqda ilk dəfə hicri 162- ci(778- 779- cu illərdə) ildə bəhs olunub. Ərəb dilində yazan tarixçi, qanunşünas və ilahiyyat mütəxəssisi **Əbu Cəfər Məhəmməd ibn Cərir ət- Təbəri** (839- 923) "Tarix-ər-rüsul və- l- mülk" (Peyğəmbərlərin və padşahların tarixi) əsərində bu hərəkatın 778- 779- cu illərdə başladığını bildirir. Bir sıra tarixçilər "xürrəmi", "xürrəmmədini" və ya "xürrəmdinlər" sözlərini işlədərək yalnız Babəkin izi ilə gedənləri nəzərdə tuturlar. Belə olduqda gəlin biz "xürrəmi" anlayışının mənşəyinə diqqət yetirək. Xürrəmi və xürəmməddin terminini tədqiq edəndə bu adın mənşəyi haqqında mənbələrdə 3 məqam göstərilir. Məsudi, Yaqut əl- Həməvi, Sadiq əl- İsfərani kimi tarixçilər "Xürrəm" sözünün Ərdəbil yaxınlığında yaşayış yeri olduğunu bildirirlər. Amma "xürrəm" termini haqda təkcə bu fikir yoxdur. Xürrəm termini haqda bir fikir olsaydı məsələnin həlli daha asan olardı. Digər bir məqama görə "xürrəm" temini kef çəkəm, əyyaşlıq edən adamlara deyilib. Lakin bu da müxaliflərin onlara atdığı bir çox böhtan və ixtilaflardan biridir. Ərəb tarixçisi **Əl- Səmani** yazırdı: onların dini bundan ibarət idi ki, onlar istədikləri və arzu etdikləri hər şeyi edirdilər. Onlara bu adı ona görə vermişdilər ki, onlar qadağa nə olduğunu bilmirdilər və şərabı, qadınlarla yaşamağı və faydalı olub nəşə verən hər şeyi xeyirli(halal) hesab edirdilər. Belə ki, orta əsr müəllifləri məzdəkilərə və onların xələfləri xürrəmilər haqda danışarkən onlarda "**arvadların ümumiliyi"** məsələsini ifrat əyyaşlığın nümunəsi hesab edirdilər. **Mütəhhər əl- Müqəddəsi** yazır: "Onların(xürrəmilərin) içərisində biz elələrini tapdıq ki, onlar qadınların ümumiliyinə öz razılığı ilə verirlər". İbn əl- Əsir "Əl- kamil fit- Tarix" əsərindı yazır: Xürrəmilərin kişiləri öz anaları, bacıları və qızları ilə arvad kimi yaxınlıq edirlər, buna görə onlara xürrəm adı veriblər. Xürrəmilərdə hər hansı nigah qrup nigahlarının olması, arvadlarının ümumiliyi məsələsi o qədər də inandırıcı görünmür. Burada bbir neçə məqama diqqət yetirmək lazımdır.

1. Sərxoşluğa, pozğunluğa və əxlaqsızlığa düçar bir toplumun 20 ildən artıq nəhəng Ərəb Xilafətinə qarşı mübarizə apara bilməzdi. Bu kimi hərəkətlərə yol verən hər bir azadlıq hərəkatı o cümlədən Xürrəmilər hərəkatı pozulmağa və məhvə məhkum olardı.
2. "Xürrəm" terminini əxlaqsızlıqla əlaqələndirən ənənədə feodal və burjua müəlliflərinin siyasi və elmi məhdudluğu və sinfi qərəzkarlığı nəzərə çarpır. Belə ki, "Xürrəmilər" hərəkatı haqqında yazanların əksəriyyəti ərəb tarixçiləri olub. Ərəb Xilafətinə qarşı yönəlmiş bir hərəkat barədə onlar ürək dolusu, müsbət fikirlər yaza bilməzdilər. **Əbül- Müzəffəri İsfərayini "Ət- təbsir fi- d- din və təmyizəl- firqət- əl- naciyyəti ən firəq il- halikin"**adlı kitabında yazır: "Xürrəmilər iki dəstəyə bölünürlər: onlarda biri İslam dövlətindən qabaq yaşamış məzdəkilərdir ki, haram işləri halal bilirdilər və deyirdilər ki, qadınlara və mal dövlətə şərikdirlər. Ənüşirəvan öz padşahlığı dövründə onları öldürürdü. İkinci dəstə İslam dövründə meydana gəlmiş Xürrəmilərdir ki, bunlara da Babəkilər və ya Məzyarlılar deyilir. Lakin Babəkilər Babək Xürrəminin tərəfdarları idilər. O, Azərbaycanda meydana gəlmişdi və tərəfdarları olduqca çox idi. O, haram edilmiş bütün işləri halal bilirdi. **İmam Fəxri Razi "Etiqadatu firəq- il müslimin və- l- müşrikin"** adlı kitabında yazır:" Babəkilər Babəkin tərəfdarları idilər. Babək özü isə Azərbaycanlı idi. Onun qüdrəti uzun müddət artmaqda idi. O, küfrün yolunu açdı. Bir çox adam onun başına toplandı. Bu iş isə Mötəsimin zamanında oldu. Bir çox şiddətli vuruşmalardan



onu tutdular və onun bəlası aradan qaldırıldı". **Əbülfərəc** **"Nəqd- əl- elm və- l- üləma ov- telbisin iblisin"** adlı də bu adamlar haqqında belə deyir: "xürrəmiyan" və əmi" yad bir sözdür. O, insanı cəzb edən ləzzətli və maraqlı haqqında işlədilir. Bu sözün mənası insanın hər növ ləzzətə sı və şəhvət düşkünü olması, habelə cəmiyyətdə əxlaq ları, dini qanunları ortadan qaldırmaq demək idi. Məzdək nin də xürrəmi anlayışı ilə bağlılığı olduğu bildirilir. əmi" termini Məzdəkin arvadının adı ilə bağlı olduğu nda **Nizam əl- Mülk "Siyasətnamə"**sində yazır: "Məzdəkin ı və Fadənin qızı Xürrəmə 2 adamla Mədaindən qaçıb Rey mahalına gəlmişdi və orada adamları öz ərinin dini təliminə dəvət edirdi; müxtəlif adamlar bu dinə daxil oldu və adamlar onları xürrəmdinli adlandırdılar. X- XIII əsrlərdə bəzi mənbələrdə dəfələrlə bildirilir ki, məzdəkilər və xürrəmilər atəşpərəst olmuşlar. **Mütəhhər əl- Müqəddəsi** bunu belə deyir: Xürrəmilər maqların bir gözüdür. **Əbül- Fərəc ibn əl- Cövzi, İbn əl- Əsir** də məzdəkilərin maq olduqlarını yazırlar. Bu əsasdan də "Xürrəm" termini "od" anlayışı əsasında təhlilini irəli sürmək olar. Farsca "xur", "xvar", "xarena" – günəş, od deməkdir. Bu baxımdan hərəkatda o qədər də rol oynamayan farslar və ermənilər "xürrəm" termininin meydana gəlməsinin mənbəyi ola bilər. Çünki qeyd olunduğu kimi "xürrəm" termini ərəb dilinin leksikonunda olan bir söz deyildir.

Azərbaycanda xürrəmilər üsyanı öz başlanğıcını **Cavidan ibn Səhl** və ya **İbn Şirakla** bağlı idi. Baqid ibn Əmr ət- Təmiminin itirilmiş "Babəkin tarixinə" görə Cavidan Ərdəbil mahalında yaşayırdı, onun böyük qoyun sürüləri vardı və o, qoyunları Zəncan bazarında satırdı. Bir dəfə Cavidan Zəncanda bir qədər mal- qara satıb öz yerinə, Bəzzə qayıdanda hava pis olduğuna görə təsadüfən Babək anasının evində qalır. Görür ki, onun müxtəlif bacarıqlarını yerinə yetirən Babək çox bacarıqlı və zirək oğlandır. Cavidan Babəkin anasına təklif edir ki, oğlunu ona qulluq etməyə versin, bunun müqabilində Cavidan onun anasına hər ay müəyyən məbləğ göndərəcək. Babəkin anası Bərumənd razılaşır. Az sonra Cavidan Əbu İmranla vuruşmada ölümcül yaralanır və 3 gündın sonra ölür. O, vəsiyyətində arvadına bildirir ki, onun ruhu Babəkə köçür. Qoy onun qoşunları Cavidana necə tabe olurlar Babəkə də elə xidmət etsinlər. Bundan sonra bütün ordu üzvləri Babəkin qarşısında and içərək bildirirlər: "Mən Cavidanın ruhuna inandığım kimi, sənə də inanıram, ey Babəkin ruhu!". Mənbələrin məlumatına görə bu əhvalat yəni Babəkin xürrəmilərə rəhbərliyə keçməsi *hicri 201-ci ildə(b.e. 816-cı ilində)* olmuşdu. **Əbu Cəfər Məhəmməd ibn Cərir ət- Təbəri "Tarix ər- rüsul və- l- mülk"(Peyğəmbərlərin və padşahların tarixi)** əsərində yazır: Hicri 201- ci ildə (b.e. 816- cı ilində) cavidanilər təriqətdən çıxmış Babək Bəzzin sahibi Cavidan ib Səhlin tərəfdarlərına rəhbərlik etməyə başladı. Xürrəmilərin apardıqları müharibə dövrü dəqiq hesaba görə 61 il olmuşdur. Çünki xürrəmilər hicri 162- ci ildə(778- 779- cu illər) baş qaldırmışdılar. Babək isə hicri 223- cü(837- 838- ci illər) ildə əsir düşənədək bu hərəkat davam etmişdir. **"Mücməli- fəsihi"**nin müəllifi xürrəmilərin ilkdəfə 162- ci ildə (778- 779) ildə üsyan etdiklərini qeyd edərək deyir: "Xürrəmilər ilk dəfə İsfahanda üsyan etdilər". Buradan aydın olur ki, İranda xürrəmilər ilk dəfə hicri 162- ci ildə İsfahan ətrafında qiyam etmişlər. Ondan 30 il sonra, yəni hicri 192- ci ildə (807- 808- ci illər) Azərbaycan xürrəmiləri üsyan etmişdilər. 9 il sonra yəni *hicri 201- ci ildə(816- 817) Babək onların başçısı sifətilə ortalığa çıxmışdır.* Babək *hicri 223- cü ilə (837- 838)* qədər 20 il xürrəmilərə başçılıq etmişdir. **Təbəri** onların bütün hökümdarlığını 30 il qeyd etdikdə bu hərəkatı Cavidanın qiyam etdiyi ildən hesablayır. Başqa tarixçilər isə "xürrəmilər 20 il hökmranlıq etmişlər" dedikdə, bu hərəkata Babəkin başçılıq etdiyi dövrü nəzərdə tutmuşlar. Babək Bəzzdə xürrəmilər icmasının rəhbərliyini qəbul edən vaxt, onun tərəfdarlarının sayı çox deyildi. **Mütəhhər əl- Müqəddəsi** yazır ki, Babək onlara qılınc və xəncər payladı və əmr etdi ki, öz kəndlərinə gedib çıxış üçün siqnallarını gözləsinlər. **Əbül- Fərəc Məhəmməd ibn İshaq ən- Nədiminin "əl- Fihrist"** əsərində yazır ki, Babəkədən əvvəl "xürrəmilərin dini etiqadında qətl, əzab və müharibə yox idi, xürrəmilər bütün bunların nə olduğunu bilmirdilər". Babək xürrəmilərə rəhbərliyə keçəndən sonra icmanın daxilində dəyişiklik əmələ gəldi. **Mütəhhər əl- Müqəddəsi və**

**ibn İbri** yazır ki, təkcə atlıların sayı Babəkin qoşununda 20min nəfər idi. Babəkin başlıca məqsədi Azərbaycanda, sonra digər vilayətlərdə ərəb hakimiyyətini məhv etməyə tabe idi. Ərəb tarixçiləri **İbn Cövzi** və **Məqrizi** yazır ki, Babək xürəmmilər qarşısında ərəbləri qovmaq, İslam dinini məhv etmək vəzifəsini qoyduqdan sonra öz ardıcıllarına elan etdi ki, bu vəzifəni yerinə yetirməyi Cavidan ona vəsiyyət etmişdi. Tarixçilər Babəkin Bağdad xəlifələri qoşunları ilə etdiyi müharibələrin bəzi təfərrüatını qeyd etmişdilər. Babək hicri 201- ci ildə(816- 817) fəaliyyətə başladı. "**Təqvim ət- təvarix"** və **Fəsihinin "Mücməl"** əsərində qeyd olunur. Hicri 201- ci ildə (816- 817) Babək xürrəmi Cavidaniyyədə üsyan etdi. Ərəb tarixçisi **Gəzdizi "Zeyn əl- əxbar"** adlı əsərdə yazır: "İsfahan, Həmədan və Masobzanın əhalisi xürrəmi dinini, xürrəmdin Babəkin məsləkini qəbul etdilər". Babək başına çoxlu qoşun topladı. 819-cu ilədək xəlifə qoşunlarının xürrəmilərlə böyük vuruşmaları olmayıb, iş yalnız yerli toqquşmalarla məhdud olurdusa, **819-cu ildə** (hicri 203-cü ildə) xəlifə **Yəhya ibn Müaz ibn Müslimin** komandası altında Babəkə qarşı ilk nizami ordu göndərdi. **Ət- Təbəri**, **İbn əl- Əsir** və **İbn Taqriberdi** kimi tarixçilərin qeydinə görə bu vuruşmada tərəflərdən heç biri məğlub olmadı. **Hicri 205- ci ildə, yəni bizim eranın 820- 821- ci illərində** başqa bir müharibə başladı. Bu barədə **İbn əl- Əsir "əl- Kamil fit- tarix"** əsərində yazır: "məmun Ərməniyyə və Azərbaycan hökmdarlığını **İsa ibn Məhəmməd ibn Əbü Xalidə** verib, onu Babəkin müharibəsinə göndərdi". O, Babəklə müharibə üçün ordu toplayaraq 821- 822-ci ildə bir dərə ilə hərəkət etdi, burada Babək onun qabağını kəsdi və onu qaçmağa vadar etdi. Isa da dalına baxmadan hey qaçırdı, nəhayət zarafatcıl bir əsgər onu səsləyib dedi: "onlarla (xürrəmilərlə) müharibədə bizim işimiz gətirmir, biz ancaq müsəlmanları qorxuda bilərik". **823- 824- cü Züreyk(Zərik) ibn Əli ibn Sədəfə əl- Əzdi** komandan oldu. Babəklə müharibə işi ona tapşırıldı. Ərəb tarixçisi **Əl- Yaqubi və İbn Təqriberdi** yazır ki, Züreyk(Zərik) xürrrəmilərlə heç nə edə bilmədi. **824- 825- ci illərdə Əhməd ibn Cüneyd İskafi** Babəkin müharibəsinə getdi. Amma Babək onu əsir götürdü. Sonra Azərbaycanın hökmdarlığı İbrahim ibn Leys ibn Fəzlə verildi. **827- ci ildə** xəlifə **Məhəmməd əl- Tusini** ərəb ordusunun komandanı təyin etdi. O, isə ilk əvvəl Züreyki(Zəriki) öldürdü. Məhəmməd 827-ci ildə Babəklə müharibəyə girişdi və 2 il ərzində davam edən vuruşmada müvəffəqiyyət həmişə onun tərəfində idi. 2 illik tərəflər arasında lokal döyüşlərdəm sonra **3 iyul 829- cu ildə Həştadsər dağında** ərəblərlə Babək tərəfdarları arasında əsas döyüş oldu. ərəblərin məqsədi xürrəmilərin istehkamı Bəzzi tutmaq idi. Babək Tusini qoşunları üçün pusqu düzəltdi. Qanlı vuruşmadan sonra ərəblər məğlub olaraq qaçmağa başladılar. **İbn Xallikan, əl- Yaqubi, ət- Təbəri, ibn Miskəveyh** yazır ki, döyüşdə Məhəmməd əl- Tusi öldürüldü. **Vardan** məhz Məhəmməd əl- Tusi ilə Babək arsındakı vuruşmada Babəkin 30 minə qədər İsmayıl övladını(ərəbi) qırdığını bildirir. **Nizam əl- Mülk "Siyasətnamə"**sində yazır: Xəlifə Məmun Məhəmməd əl- Tusinin həlak olmasından çox kədərləndi. Çünki o, çox bacarıqlı sərkərdə idi. 829- 830- cu ildə Məmun Azərbaycan, Cibal, İsfahana Əli ibn Hişamı hakim təyi etdi və həm də xürrəmilərlə vuruşmağı tapşırdı. Lakin Əli ibn Hişam əyalətlərdə özbaşınalıq etməyə və xalqı sıxışdırmağa başladığına görə xəlifə onu sakitləşdirmək üçün Yəmən hakimi Uceyf ibn Ənbası göndərdi. Bunu xəbər alan Əli ibn Hişam Uceyfə hücum edib onu öldürmək və Babəkin tərəfinə qaçmaq istədi, lakin tutuldu və 830- 831- ci illərdə Bağdadda edam edildi. **Dinəvəri** qeyd edir ki, bu zaman "Babəkim işi böyük vüsət aldı və adamlar ondan qorxmağa başladılar". **Xəlifə Məmun** 833- cü ilin acqustun 7- də öldü, öz qardaşı **Mötəsimi** taxta varis təyin edərək ona vəsiyyətnamə qoydu. Bu vəsiyyətin başlıca maddəsi xürrəmilərə qarşı müharibəyə başlıca diqqət vermək sərəncamı idi. **Təbəri** yazır ki, xürrəmilərə gəlincə, onlara qarşı müharibəyə qətiyyətli və rəhmsiz bir adam göndər. Ona səbrlə pul, silah, atlı və piyada qoşunla kömək et. Əgər onların vaxtı uzun çəksə sən öz tərəfdarların və yaxın adamlarınla onların üstünə get". **833- cü il avqustun 10-da Mötəsim** xəlifə elan edildi. Yeni xəlifə taxta çıxan kimi sələfinin vəsiyyətinə əməl etməyə başladı. O, xürrəmilərə qarşı müharibəyə hazırlıq görməyə başladı. Xəlifə də başa düşürdü ki, Azərbaycan və digər əyalətlərin xalq hərəkatlarının qarşısında zəiflik Xilafəti məhvə sürüklüyə bilər. O, bu iş üçün heç bir şeyi əsirgəmədi. Bunun nəticəsi idi ki, xürrəmilərə qarşı onun qoşunlarının ilk hücumu uğurla nəticələndi. **Ət- Təbəri "Tarix ər- rüsul və- l- mülk"** də yazır: " Mötəsim onlara qarşı qoşun göndərdi, onun göndərdiyi axırıncı ordu İshaq ibn İbrahim ibn Müsəbin komandası altında idi ki, onu da Mötəsim, həmin ilin(yəni 833- cü ildə) Şəvval ayında(hicri təqvimlə oktyabrın 20- si noyabrın 17- si) Cibala hakim təyin etmişdi. O, zülqədər ayında xürrəmilərin üstünə gəldi. Onun xürrəmilər üzərində çaldığı qələbə haqqındakı məlumat Bağdadda təvriyyə günündə (həmin gün ki, zəvvarlar Məkkədən Minaya gedirdilər)

**833- cü il dekabrın 25- i** oxundu. Bu döyüşdə bəzi mənbələr məsələn Nizam əl- Mülk "Siyasətnamə"sində bildirir ki, İshaq ibn İbrahim 100 min xürrəmini məhv etdi. **Təbəriyə** görə 60min xürrəmi məhv edilmişdi. Bu döyüş xürrəmilər üzərində xilafət qoşunlarının ilk böyük qələbəsi idi. Xəlifə Mötəsim Həmədan yaxınlığındakı ilk uğurdan sonra başa düşdü ki, qüvvələri parçalamaq və xürrəmilərlə hədənbir vuruşmaq müharibənin gedişinə təsir göstərməyəcəkdir. Mötəsim hiss etdi ki, onun qardaşının və sələfinin Babəklə etdiyi müharibətaktikası kökündən yanlış idi. Babək kimi təhlükəli düşmənə qarşı Xilafətin qüvvələrini toplamaq üçün Kiçik Asiyada Bizansla daimi müharibə meydanında hərbi əməliyyatı dayandırmaq lazım idi. Mötəsim öz sələfindən fərqli olaraq Babəklə müharibənin strateji cəhətinə xüsusi diqqət yetirdi. O, düşmənin qüvvəsi və gücünü bildiyindən uzun sürən müharibəyə hazırlaşdı və hər şeyi: qoşunun tərkibini və görkəmli sərkərdləri seçməkdən, köməkçi hisslərlə təmin etməkdən tutmuş Xilafətin maliyyə, ərzaq və yem ehtiyatlarını səfərbər edincəyədək hər şeyi müharibə ehtiyaclarına tabe etdi. **Əz- Zəhəbi** yazır: **835- ci il iyunun 3- də** Xəlifə Mötəsimin Misirdə Bizans qoşunları ilə vuruşmada öz hərbi məharətini göstərən istedadlı sərkərdə **Afşin Xidr ibn Kavusa** tapşirdi. Afşinin adı Kavus oğlu **Xidr və ya Xnidr** idi. Bəzi müəlliflər Afşinin adını yalnış olaraq **Heydər** yazmışlar. Xəlifə bu müharibə üçün vəsait əsirgəmirdi. Afşin xürrəmilərlə vuruşmada girəndə gündə 10 min dirhəm, hərbi əməliyyat olmayanda 5min dirhəm alırdı. **Əz- Zəhəbi** yazır ki, təkcə 837- ci ildə Mötəsim Babəklə müharibəyə 1mln dirhəm xərcləmişdi. **"Əl- Uyun və- l- hədaiq"** əsərində qeyd edilirdi ki, Afşin casus məlumatı toplamağa xüsusi diqqət yetirirdi. Afşin öz casuslarından əlavə Babəkin casuslarını da öz tərəfinə cəlb edərək, xürrəmilərin yeri, istehkamları və manevrləri haqqındakı məlumat üçün onlara daha artıq pul verirdi. Getdikcə Babəkin yerli hökmdarlar sırasında olan müttəfiqləri ondan ayrılmağa başladı. Babəkə xəyanət edənlər arasında **Təbriz və Şahi qalası** hökmdarı **Məhəmməd ibn əl- Bəisdə vardı. Əl- Yaqubi** yazırdı ki, İbn əl- Bais, xəlifə qarşısında özünə bəraət qazandırmaq üçün "Mötəsimə məktub yazıb ona öz sədaqətini bildirir və onu əmin edirdi ki, Babək və onun tərəfdarlarına qarşı lazımı tədbirlər görəcəkdir. Məhz ibn Bais xəyanətlə qohum olduğu İsma əl- Kürdini tutub Səmərraya xəlifənin sarayına göndərdi. **Əbül Abbas Əhməd ibn Yəhya ibn əl- Bəlazuri "Kitab əl- buldan"** əsərində qeyd edir ki, xəlifə Mütəvəkkilin dövründə İbn əl- Bais Xilafətdən yenidən ayrıldı, lakin axırda 850- ci ildə ömrünü zindanda başa vurdu. Afşin 835- ci il ərzində Bəzzə yaxınlaşma yollarındakı istehkam məntəqələrini bərpa edir və yenisini qururdu. **Ibn İbri** qeyd edir: "ərəb və xürrəmi orduları arasında kəşfiyyat xarakterli toqquşmalar olur, bəzən bu, bəzən də o biri tərəf müvəffəqiyyət qazanırdı. Bu yerlərə yaxşı bələf olan xürrəmilər ərəb qoşunlarının təchizat yollarını tutur, ərzaq və silah karvanlarını ələ keçirməklə ərəbləri çətin vəziyyətə qoyurdular. Nəticədə Afşinin qoşunları daim aclıq və susuzluqdan əzab çəkirdi. **İbn əl- Əsirin** qeydi kimi "cismən və ruhan məğlub olurdu". 835- ci ildə **Arşak** yaşayış məntəqəsində baş verən döyüşdə xürrəmilər məğlub oldular. Buna səbəb xürrəmilərin içində xəyanətkarın olması olub. **Əl- Məkin və Tarixi əl- Salihin** əsərində olan məlumata görə bu döyüşdə xürrəmilər 1000- dək itki verdilər. **836- cı illdə Həştadsər dağı** yaxınlığında xürrəmilərlə Buğa əl- Kəbrin komandası altındakı ərəb ordusu arasında vuruşma oldu. Təkəbbürlü Buğa, Afşinin əmrinə etina etməyərək şəxsən xürrəmilərlə vuruşmaq qərarına gəlmiş və bunun cəzasını görmüşdü. Babək 2000- lik dəstə ilə gözlənilmədən Buğanın qarşısına çıxdı və onun qoşununu qapalı bir dərədə məğlub etdi. "Böyük Buğa" çətinliklə qaçıb qurtula bildi. Bu Babəkin Xilafət qoşunları üzərində son böyük uğru oldu. Bu məğlubiyyətdən sonra Afşin öz qoşununu Bəzzə yaxın olan Bərzəndə çəkdi. Bu, Babəlin Xilafətin qoşunları üzərində son böyük uğuru oldu. Bu məğlubiyyətdən sonra Afşin öz qoşununu Bəzzə yaxın olan Bərzənə çəkdi. 836- cı ildə qış aylarında xürrəmilər igid Türk olan Tarxanı itirdilər. Afşin başa düşürdü ki, Tarxan xürrəmilər ordusunun başında qalarsa, ərəblər onlara qarşı müharibədə çox çətinlik çəkəcəklər. Nəhayət, buna müvəffəq oldular. Ərəb xilafətinə qarşı illər boyu davam edən mübarizədə xürrəmilərin müvəffəqiyyət qazandığı axırıncı il 837- ci il gəlib çatdı. Mötəsim Cəfər Xəyyatı bir qədər qoşunla Afşinin köməyinə göndərdi. Xəlifə onlarla Afşinə qoşun maaşı və təchizat üçün 30mln dirhəm pul da göndərdi. Köməkçi qüvvənin gəlmiş olmasına baxmayaraq, Afşin xürrəmilərlə müharibə taktikasını tamamilə dəyişdirdi. Müharibənin uğurlarına hələ də inanmayan xəlifə Mötəsim Afşinə bir- birinə zidd olan müxtəlif sərəncamlar verirdi. Afşin də bu sərəncamları elə yerinə yetirirdi ki, az sonra ərəb qoşunlarında komandana qarşı narazılıq başlandı. Afşin əsgərlərin narazılıqlarına baxmayaraqverdiyi sərəncamlarında daim xəlifəyə istinad edirdi. Ərəblərin qida təchizatı da yaxşı

deyildi. Bunu bilən Babək bir dəfə Afşinə bir adamla bir yük tərəvəz göndərdi. Afşin Babəkin bu hədiyyəsini məmnuniyyətlə qəbul etdi və onun göndərdiyi adama icazə verdi ki, ərəb düşərgəsindəki istehkamları baxıb görsün. **Təbəri** qeyd edir ki, xürrəm ətraflı baxdıqdan sonra Afşin onu geri buraxdı və xahiş etdi ki, "qardaşı Babəkə onun salamını yetirsin".

Afşinin Babəklə bu cür münasibəti ərəb qoşununa və xüsusən sərkərdələrdə şübhə doğurmaya bilməzdi. Sonralar məlum oldu ki, Afşin Babəklə müharibənin axırıncı ilində Təbəristan hakimi Məzyərlə olduğu kimi gizli danışıqlar aparırdı və məqsədi Xilafət hakimiyyətini məhv etmək idi. **Əbu Mənsur əl- Bağdadi** bildirir ki, Afşin "Babək ilə gizli qəsd hazırlamışdı". Mötəsim Afşini Babəkə qarşı göndərəndə "belə düşünürdü ki, o müsəlmanlara səmimi münasibət bəsləyir". Əslində isə Afşin Babəklə əlbir idi və ona qarşı müharibəni uzadırdı. Yalnız müharibə qurtardıqdan sonra Xəlifə Afşinin satqınlığını və Babəklə müharibə zamanı onun müsəlmanlara xəyanət etdiyini oyrəndi. Lakin Xilafətə qarşı əlbir əməliyyat keçirmək barəsində Babək, Afşin və Məzyər arasında gedən gizli danışıqmvə yazışmalar bir nəticə vermədi. Odur ki, Afşin də özünü tamamilə ifşa etməmək üçün, Bəzzə hücum etmək əmrini verməyə məcbur oldu. **Cəfər əl- Həyyat, Əbu Səid, Buxara Xudatın** komandası altında olan Türk qoşunları və könüllülər qalanı mühasirəyə aldılar. Bəzz uğrunda uzun sürən vuruşmalar başladı. Bu zaman xürrəmilər qaladan çıxıb ərəbləri tələfat verməyə məcbur etdilər. Ərəblər mancanaqları işə salaraq hasarı sökməyə başladılar. Xürrəmilər sona qədər mübarizə aparsalar da getdikcə qalanın davam gətirməyəcəyini görən Babək Afşinlə şəxsi danışıqlara girdi. **Əl- Yaqubi** bu danışıq barədə yazır: "danışıqlar zamanı Afşin "Babəkə aman təklif etdi"". Lakin o bir gün də gözləməyi xahiş edəndə Afşin belə dedi: "sən istəyirsən öz şəhərini möhkəmlədəsən. Əgər amanda qalmaq istəyirsənsə çayı keç". Lakin o uzaqlaşdı. Babəkin amanı qəbul etməkdən boyun qaçırmasına baxmayaraq Afşin bir müddət sonra onun yanına adam göndərib xahiş etdi ki, barışıq haqqında danışıqlar üçün onun yanına etibarlı bir adam göndərsin. **Nizam əl-Mülk "Siyasətnamə"sində yazır: Afşin babəkin elçisinə dedi: "Babəkə bunları söylə: hər başlanğıcın bir sonu var. Insanın başı soğan gövdəsi deyil ki, yenidən cücərə bilsin. Mənim adamlarımın çoxu qırılmışdır. Sənin vəziyyətin də yəqin belədir. Gəl sülh bağlayaq".** Babək Afşinin təklifini ikinci dəfə rədd etdi, amma bir neçə gündən sonra Türk qoşunları şəhərə girən zaman Babək özü Afşinlə görüşməyi xahiş etdi. Görüşdə Afşinə dedi: "mən əmir əl- mömindən aman istəyirəm. Afşin cavab verdi: " mən sənə təklif etmişdim və sən nə vaxt istəsən sənə aman veriləcəkdi". Lakin Afşin qabaqcadan danışdığı kimi Babəkdən tələb etdi ki, onun yanına girov adamlar göndərsin, amma bundan bir əməl hasil olmadı, çünki girov göndəriləcək şəxslər vuruşmada idilər və onları çağırıb girov göndərmək mümkün deyildi. **Əbu Hənifə Dinəvari "Əxbari ət- tival"** əsərində yazır: Babək Afşinlə danışıqdan sonra qalaya getdi, orada isə, tarixçinin dediyinə görə "elə vuruşma gedirdi ki, bunun mislini heç kəs görməmişdi". Afşin şəhərə neft atanlar dəstəsini gətirdi və onların köməyi ilə Bəzz **837- ci ilin avqust ayının 26- da** ərəb qoşunu tərəfindən tutuldu(**Ət- Təbərinin** qeydi). Afşin əmr etdi ki, şəhərin qalalarını dağıtsınlar və şəhəri 3 gün ərzində yandırsınlar. **Əz- Zəhəbi, Yaqut əl- Həməvi** yazır ki, Babəkin oğulları onların ailə üzvləri şəhərdə tutuldular. **Nizam ül-Mülk "Siyasətnamə"sində** verdiyi məlumata görə Bəzz alınarkən 80mindən artıq xürrəmi öldürülmüşdü. **Əl- Bağdadi, Dinəvəri, əl- Məsudi** kimi tarixçilər qeyd edirlər ki, ərəblər Bəzzi aldıqdan sonra Babək tacir paltarı geyib Araz çayından keçərək Arran tərəfə qaçdı. Babək Bizansa getmək istəyirdi, çünki Bizans imperatoru ilə çox yazışırdı. Bizans imperatoru Feofil Bizans tərəfdən Xilafətə hücuma çətin vəziyyətdə olan Babəkin ona məktub yazmasından sonra göndərdi. **Ət- Təbəri** Feofilin Babəkə kömək üçün etdiyi hücum tarixini hicri 223(838- ci il) göstərir. **Əbu Səid əl- Qədrizi "Zeyn əl- əkbar"** adlı əsərində yazır: "Babəklə Bizans imperatoru Feofil arasında yazışma var idi, Feofil gec də olsa, Babəkə qoşunla kömək etdi. Afşin Babəki tutmaq üçün bütün yollara dəstələr göndərdi, lakin Babəkin izinə düşməyin qızğın çağında, birdən Xilafət paytaxtından xilafətin qızıl möhürü ilə bir məktub gəldi. **Ət- Təbəri** yazır ki, xəlifə Mötisim Babəkə aman bəxş edirdi. Afşin bu əhvalatdan lap çaşıb qaldı. Afşin Babəkin əsir edilən oğluna xəlifənin məktubunu atasına çatdırmasını tələb etdi. Amma o buna razı olmadı. Afşin digər iki xürrəmi ilə məktubu Babəkə göndərdi. Babəkin oğlu da atasına xəlifənin məktubuna müsbət cavab verməsi üçün məktub göndərdi. Lakin Babəkin cavabı nə xilafətin, nə də oğlunun düşündüyü kimi oldu. Belə bir rədd cavabı Afşinin, əlbəttə, xoşuna gəldi, çünki Babəklə danışıqlarından xəlifənin xəbəri olduğu haqqında şübhələnməyə başladı. O, Babəki və onun yoldaşlarının

axtarmağı davam etdirmək haqqında sərəncam verdi. Babəkin azuqəsi qurtaranadək Azərbaycanda Ərməniyyə vilayətinə gedən dərədə gizləndi. Babəklə birlikdə onun 2 qardaşı- Müaviyyə və Avdullah, anası, arvadı və bir neçə xidmətçi vardı. Babəkin Sünik knyazı Vasaqın qızı olan İbnət əl-Kədəniyyə təkidi ilə Bizansa getməyi qərara aldı. Ibnət məcbur edirdi ki, Babək yolu onların knyazlığından- Sünikdən salsın. Amma Babək və onunla gedənlər yolda ərəblər tərəfindən təqib olunurdu. Afşinin dəstəsi yolda onlara hücum etdi. Babək, Abdullah və xidmətçilərdən biri qaçıb aradan çıxdı. Babək ilə qardaşı gizlincə çox yol getdilər, nəhayət, aclıq onları vadar etdi ki, açıq yola çıxsınlar. Bu yerdən bir az aralı sərhəd məntəqəsi vardı və həmin vilayətin **Şəki** hökmdarı **knyaz Səhl ibn Sunbatın** mühafizə dəstəsi burada keşik çəkirdi. Buraya gələn Səhl vaxtilə ümumi mənafeyi bir olan Babəki tanıdı. **İbn əl- Əsir "əl- Kamil fil Tarix"** kitabında yazır: "Babəkin Bizansa getdiyini Səhl bilirdi. O, Babəki qalasına dəvət edərək dedi: Bu sənin öz evindir və mən sənin nökərin. Bu qışı burada qal, sonra nə edəcəyini qət edəcəksən. Ac və yorğun olan Babək Səhlə inandı və onunla razılaşdı. Səhl Afşinə Babəkin onun yanında olduğunu xəbər verdi. Bir neçə gündən sonra Səhl qurduğu tələdə Babək tutuldu. **Dinəvəri** və **İbn İbri**, eləcə də **Alban tarixçisi Musa Kalankatlu (Moisey Dasxuranlı)** Babəkin Səhl tərəfindən əsir edildiyi və Afşinə təhvil verildiyi yazılır. Tarixçi Vardan yazır ki, Səhl "qiyamçı Babəki tutdu və Afşinə verdi". Az sonra Afşinin tələbinə görə İbn İstifanus Babəkin qardaşı Abdullanı da təslim etdi. Vardan deyir ki, Babəki tutmaq üçün Səhl "Afşindən bəxşiş olaraq 1000 kişr gümüş və bir daha 100min aldı". Afşin babəkin və onun qardaşının tutulmasını xəlifə Mötəsimə xəbər verdi. **Ət- Təbəri** yazır: "Afşin İraqa qayıtmağa hazırlaşarkən Babəkə dedi: mən səninlə İraqa yola düşmək niyyətindəyəm, buna görə Azərbaycan torpağında istədiyin yerə axırıncı dəfə baxa bilərsən. Babək belə cavab verdi: Mən öz şəhərimə baxmaq istərdim. 837- ci ildə sentyabrın 15- də Babək bir zaman alınmaz qala olan Bəzzin dağıdılmış mənzərəsini yad edəndən sonra Bərzəndə Afşinin yanına gətirildi. Babək və onun qardaşı 838- ci ilin yanvarın 4- də **Səmərraya(Samirə)** gətirildi. **Məsudi** yazır ki, xəlifə Babəkin əsir alındığını xəbər alan kimi "onu sevinc bürüdü və öz sevincini açıq bildirdi". Qələbə haqqında ölkənin hər yerinə xəbər göndərildi. Ərəb tarixçiləri **əl- Məkin, İbn Təqriberdi və Məsudi** qeyd edir ki, Babək müxtəsər dindirildikdən sonra şaqqalandı, onun başı əhalini qorxutmaq üçün Xorasana göndərdi, bədəni isə Səmərrada asıldı. Babəkin edam zamanı göstərdiyi mətanət, dözümlülük orta əsr ərəb tarixçilərinin əsərlərində də qeyd olunub. **İbn Təqriberdi** deyir ki, Babək öz zəmanəsini qəhrəmanı və Xilafəti dəhşətə gətirən bir igid idi. **Mütəhhər əl- Müqəddəsinin** məlumatına görə: "Babəkin üzərində qələbə İslam dövlətində ən böyük qələbə idi, onun əsir olduğu gün isə müsəlmanların bayram günü idi". **Nizam əl- Mülk** dediyini də qeyd etmək olar: "Mötəsimin 3 böyük qələbəsi olmuşdur, hamısı İslamın Şöhrəti idi: birincisi Rum üzərində qələbə, ikinci Babək üzərində qələbə, üçüncüsü Təbəristanlı Məzyər Kəbr üzərində qələbə idi. Bu 3 qələbədən lap biri baş tutmasaydı İslam məhv olardı. Gördüyümüz kimi, Azərbaycan xürrəmiləri üzərində qələbə xilafət üçün asan başa gəlmədi. Bunun üçün əsasən yüksək döyüş qabiliyyətləri ilə seçilən türk hərbi dəstləri səfərbərliyə alınmışdı. Babəkin rəhbərliyi ilə xürrəmilərin azadlıq hərəkatı Azərbaycan tarixinin ən möhtəşəm səhifələrindən biridir. Bu hərəkat sarsılmaz qüdrəti ilə seçilən ərəb xilafətinin dayaqlarını zəiflətdi. Azərbaycanda və Rusiyada şərqşünaslıq elminin banisi olan **Mirzə Kazım bəy "Bab və babilər"** xilafətdə olan üsyanlar haqqında qeyd edir ki, Abbasilər xilafətində xalq üsyanlaının müvəfəqiyyətləri "qısamüddətli və keçici olsa da, heyrətli idi". Babəkin hərəkatı digər hərəkatlar kimi müəyyən səbəblər üzündən müvəffəqiyətsizliyə uğramasına baxmayaraq, xilafətin şimal vilayətlərində yaşamış xalqların şüurunda dərin iz buraxdı. Babəkin ardıcılları IX əsrin axırlarınadək Xilafətdə baş verən bütün yeni üsyanların özəyi oldular. **G. H. Sadigəni "Le Mouvements religilux iraniens" və E. Basworth "The Rise of the Karamiyyah in Khurasan"** adlı əsərlərində qeyd edirlər ki, xürrəmilər bir çoxları kimi X əsrdə İsmaililərin təbliğatına uydular və təsadüfi deyildir ki, İranın şimal- şərq və şimal- qərb "Xəzər dənizi sahili və Kuhistan rayonları" sonralar xürrəmilər ardıcılları olan batinilərin dayağı oldu.

## Nəticə

Babəkin başçılığı altında Azərbaycanda Ərəb xilafətinə qarşı azadlıq hərəkatının baş verməsi böyük əhəmiyyətə malik bir hadisə olmuşdur. Xürrəmilər bir hərəkat kimi sosial bərabərlik, ədalətli cəmiyyət uğrunda mübarizə aparırdılar. Onlar məzdəkilər kimi Allah nemətlərinin insanlar arasında bərabər bölünməsini istəyirdilər. xürrəmilərin apardığı mübarizədə İslamın bəzi ehkamlarını ləğv etmək istəmələri və ya rədd etmələri fikri kimi iddialar irəli sürülür. Əslində babəkilər tərəfindən İslamın bəzi ehkamlarının ləğv edilməsinə müəyyən qədər haqq qazandırmaq olar. Çünki uzun müddət ayrı- ayrı dini dünyagörüşlərə xidmət edən xalqın nümayəndələrini birdən- birə İslamın bütün ehkamlarını qəbul etməsi mümkün deyildi. Bu heç də Babəkin ateist olması fikrinə gətirib çıxarmır. Bir qədər hadisələri qabaqlayaq. Belə ki, XIII əsrdə Azərbaycana hücum etmiş monqollar nə üçün onların dini olan şamanizmi Azərbaycanda rəsmi din elan etmədilər və ya edə bilmədilər? Çünki XIII əsrdə artıq Azərbaycan altı əsrə yaxın idi ki, İslamı qəbul etmişdilər. Ona görə də monqollar şamanizmi azərbaycanlılara qəbul etdirmədilər özləri İslamı qəbul etdilər. Elə cə də xürrəmilərdə. Uzun əsrlər ayrı- ayrı dini əqidələrə xidmət edən xalq ərəb xilafətinə qarşı mübarizədə qəbul etmədikləri ehkamları irəli sürür və xalqın azadlıqsevər təbəqələrini bu ehkamlarını ləğv etmək uğrunda mübarizəyə çağırırdılar. Xürrəmilər hərəkatının özəyində məzdəkilər dururdu. Cavidanın dövründə mübarizəni başlayan xürrəmilər alovlu vətənpərvərlər kimi əsas güclərini məhz 816- cı ildə Babəkin bu hərəkata rəhbərliyindən sonra göstərməyə başldılar. Babəkin hərəkata rəhbərliyi hərəkatın genişlənməsində mühüm rol oynadı. Güclü ordu yaradan Babək bir- birinin ardınca 819- cu il, 820- 21- ci illər, 825- 26- cı illər əməliyyatlarında uğurlu qələbələr qazandı.Ən böyük ilk qələbəsini 829- cu ildə Həştadsər döyüşündə qazandı. Ərəblərin Bəzzi tutmaq cəhdi baş tutmadı. 830- cu il Həmədan döyüşündə babəkilər yenidən uğur qazandı. 833- cü ildə II Həmədan döyüşündə Babək ilk dəfə uğursuzluğa düçar oldu. Bu ərəb xilafətinə öz səhvini anlatdı. Bütün qüvvələr xürrəmilərə qarşı yönəldildi. Qüvvələr nisbəti getdikcə xürrəmilərin əksinə, ərəblərin xeyrinə gedirdi. 836- cı il II Həştadsər döyüşü Babəkin son böyük uğuru oldu. Afşin ərəb qoşunlarına rəhbərliyə gələndən sonra Babək haqqında kəşfiyyat məlumatları toplamağa, onun sərkərdələrini aradan qaldırmağa başladı. Üzücü müharibələr artıq Babəkin tərəfdarı olan sadə xalq nümayəndələrinin ondan uzaqlaşmasına gətirib çıxarırdı. 837- ci il avqustun 26- sı Babəkin Bəzz uğrunda döyüşü onun son döyüşü oldu. Bəzz tutuldu. Ərəb xilafəti Bizansa qarşı mübarizədə Babəkdən istifadə etmək cəhdləri baş tutmadı. Babək ən son anlara qədər Vətənin azadlığını öz şəxsi maraqlarından üstün tutdu. Babəkin edamı ərəb Xilafətinin ən böyük qələbəsi oldu. 20 illik ərəb Xilafətinə qarşı mübarizə ərəblərin 225500 nəfər əsgər və çoxlu ərəb sərkərdəsi məhv edilmişdi. Babək hərəkatı Abbası xilafətini kökündən sarsıtdı. Bu sarsıntı o qədər güclü oldu ki, Xilafət bir daha özünün əvvəlki qüdrətini bərpa edə bilmədi. Məhz Babək hərəkatı Azərbaycanda və digər Xilafət ərazilərində xilafət əleyhinə hərəkatlara bir ideya mənbəyi və təkan oldu. Xürrəmilər və onun rəhbəri Babək Azərbaycanın mübarizə tarixində şərəfli bir ad kimi daxil olmuşdu.

## İstifadə olunmuş mənbələr və ədəbiyyat


1. Əbu Cəfər Məhəmməd ibn Cərir ət- Təbəri "Tarix ər- rüsul və- l- mülk". Qahirə Hüseyniyyə mətbəəsi
2. Əl- Səmani "kitab əl- ənsab" Leyden 1913
3. İbn əl- Əsir "əl- kamil fit- tarix" Leyden 1876- 1881
4. Əbül- Müzəffəri İsfərayini "ət- təbsir fi- d- din və təmziyəl- firqət əl- naciyyətiən firəq il- halikin" Qahirə 1940
5. Imam Fəxri Razi "Etiqadatı firəq- il müslümin və- l- müşrikin"
6. Əbülfərəc Cövzi "Nəqd- əl- elm və- l- üləma ov təlbisin iblisin"
7. Nizam ül- Mülk "Siyasətnamə"
8. Baqid ibn Əmr ət- Təmimin "Babəkin tarixi"
9. "Mücməli fəsihi"
10. Əbül Fərəc Məhəmməd ibn İshaq ən Nədimi "əl Fihrist"
11. Ibn əl- İbri "əl- Müxtədər tarix əd- düvəl" Beyrut 1860
12. Gərdizi "Zeyn əl- əxbar" Tehran hicri 1333
13. əl- Dinəvəri "Əl- əxbar- ət tival" Leninqrad 1904
14. əl- Bələzuri "kitab fütuh əl- buldan" Leyden 1876
15. Mirzə Kazım bəy "Bab və babilər"
16. G. H. Sadidni "Le mouvents religieix iranians"
17. E. Basworth "The Rise of the Karamiyyah and Khurasan" 1960
18. Səid Nəfisi "Babək" Bakı 1990
19. Z. Bünyadov "Azərbaycan VII- IX əsrlərdə" Bakı 1989
20. S. Əlyarlı "Azərbaycan tarixi" Bakı 1996



BDU- nun tarix fakültəsinin III kurs tələbəsi

Sahil Əzimli